**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Coğrafiya fakültəsi "Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası" kafedrası**

**MAGİSTRATURA PİLLƏSİ ÜÇÜN**

# P R O Q R A M

**(I Kurs)**

**İXTİSAS - 060506-Coğrafiya**
**İXTİSASLAŞMA- Azərbaycanın fiziki coğrafiyası**

**FƏNN - "Azərbaycanda əhalinin vahid məskunlaşma problemləri"**

**BAKI-2023**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Coğrafiya fakültəsi "Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası" kafedrası**

**MAGİSTRATURA PİLLƏSİ ÜÇÜN**

# P R O Q R A M

**(I Kurs)**

**İXTİSAS - 060506-Coğrafiya**
**İXTİSASLAŞMA- Azərbaycanın fiziki coğrafiyası**

**FƏNN - "Azərbaycanda əhalinin vahid məskunlaşma problemləri"**

**Bakı Dövlət Universiteti Coğrafiya fakültəsi Elmi Şurasının 02 iyun 2023 12 saylı iclasının qərarı ilə fənn proqramı kimi təsdiq edilmişdir.**

**BAKI-2023**

**Elmi redaktor:**
**Eminov Zakir** – AMEA, Akad. H.Ə.Əliyev adına coğrafiya institutunun direktoru

**Tərtib edən:**
**Nağıyev Saleh Qasım o.** – BDU, Coğrafiya fakültəsi, Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrasının müdiri, dosent

**Rəy verənlər:**
**Zaur İmrani** – H.Əliyev adına Coğrafiya İnstitutunun Turizm-rekreasiya coğrafiyası şöbəsinin müdiri, dosent.
**Dərgahov Vüqar Səttar o.-** BDU, Coğrafiya fakültəsi, Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının dosenti.

## Azərbaycan Respublikasında əhalinin vahid məskunlaşma sistemi və problemləri

## İzahat vərəqi

"Azərbaycan Respublikasında əhalinin vahid məskunlaşma problemləri" fənni BDU-nun "Coğrafiya" fakültəsində "Azərbaycanın fiziki coğrafiyası" ixtisası üzrə təhsil alan magistrantlara I kursun II semestrində 45 saat həcmində (30 saat mühazirə, 15 saat məşğələ) tədris edilir.

Fənnin tədris edilməsində məqsəd məskunlaşma sisteminin formalaşmasının əsas istiqamətlərini, "Vahid Məskunlaşma Sistemi" nəzəriyyəsinin tətbiqi yollarını öyrətmək və Azərbaycan Respublikasında onun inkişaf xüsusiyyətini müəyyən etməkdir. Əsas vəzifə məskunlaşmanın regional fərqlərini təhlil etməklə onun nizamlanması və davamlı inkişaf yollarını tədris etmək, magistrlərə bu sahədə problemlərin aradan qaldırılması yollarını öyrətməkdir. Kursun proqramını tədris etməklə bütövlükdə ölkədə, o cümlədən onun regionlarında məskunlaşmanın tənzimlənməsi, məqsədəuyğun idarə olunması, problemlərinin aradan qaldırılması yollarının müəyyən edilməsi və onların həyata keçirilməsi mümkün ola bilər.

Bu məqsədlə hazırlanan proqram Azərbaycan Respublikasının əhalinin vahid məskunlaşma sisteminin formalaşmasının təbii-coğrafi, sosial-iqtisadi və demoqrafik əsaslarının öyrənilməsini, inkişafını və regional xüsusiyyətlərini əhatə edir. Proqram həm də magistrlərə dissertasiyalar üzrə tədqiqatlar zamanı üçün əlavə vəsait kimi faydalı ola bilər.

**Fənnin mənimsənilməsi nəticəsində tələbələr bilməlidir:**

- Əhalinin öyrənilməsinin əhəmiyyətini
- Əhalinin öyrənilməsinin nəzəri metodoloji əsaslarını
- Təbii-coğrafi amillərin əhalinin məskunlaşmasına təsirini
- Əhalinin məskunlaşması sisteminin formalaşması prosesində təsərrüfat sahələrinin rolunu

- Azərbaycan Respublikası əhalisinin demoqrafik göstəricilərini
- Azərbaycan Respublikasında əhalinin məskunlaşmasının tarixi-coğrafi inkişaf xüsusiyyətlərini
- Azərbaycan Respublikasında şəhər məskunlaşması və urbanizasiya problemlərini
- Azərbaycanda Respublikası kənd məskunlaşması və inkişaf problemlərini
- Məskunlaşmanın regional xüsusiyyətləri.

**Bacarmalıdır:**

- Əhalinin öyrənilməsinin cəmiyyətin inkişafı və idarə edilməsində rolunu qiymətləndirmək
- Azərbaycan Respublikasında vahid məskunlaşma sisteminin formalaşmasının təbii-coğrafi amillərinin təhlili
- Azərbaycan Respublikasında əhalinin demoqrafik göstəricilərinin dinamikası və əsas meyllərini müəyyən etmək
- Məskunlaşmanın tarixi-coğrafi inkişaf xüsusiyyətlərini təhlil etmək
- Məskunlaşmada regional fərqlərin yaranması səbəbləri və amillərini müəyyən etmək
- Azərbaycan Respublikasında məskunlaşmanın iqtisadi və sosial bazasının yenidən qurulması istiqamətlərinin proqnozunu vermək

**Yiyələnməlidir:**

- Əhalinin öyrənilməsinin əhəmiyyəti və nəzəri-metodoloji əsaslarına
- Təbii ehtiyatların əhalinin məskunlaşmasında rolu və onlardan istifadə edilməsi istiqamətlərinə
- Azərbaycan Respublikasında şəhər və kənd məskunlaşmasının müasir vəziyyəti və inkişaf problemlərinə

- Azərbaycan Respublikasında əhalinin vahid məskunlaşma sisteminin formalaşmasının təbii-coğrafi, sosial-iqtisadi və demoqrafik əsaslarına
- Məskunlaşmanın regional xüsusiyyətlərinə
- Məskunlaşmanın regional fərqlərini təhlil etməklə onun nizamlanması və davamlı inkişaf yollarına

| № | MÖVZU | Cəmi | O cümlədən | |
|---|---|---|---|---|
| | | | müh. | lab. |
| **1** | Əhalinin öyrənilməsinin əhəmiyyəti, nəzəri-metodoloji əsasları və vəzifələri | 2 | 2 | |
| **2** | Azərbaycan Respublikasında vahid məskunlaşma sisteminin formalaşmasının təbii-coğrafi amilləri | 4 | 2 | 2 |
| **3** | Azərbaycan Respublikasında vahid məskunlaşma sisteminin formalaşmasının iqtisadi və sosial bazası | 2 | 2 | |
| **4** | Azərbaycan Respublikasında əhalinin demoqrafik göstəricilərinin dinamikası və əsas meylləri | 4 | 2 | 2 |
| **5** | Azərbaycan Respublikasında məskunlaşmanın tarixi-coğrafi inkişaf xüsusiyyətləri | 2 | 2 | |
| **6** | Azərbaycan Respublikasında şəhər məskunlaşması və urbanizasiya problemləri | 4 | 2 | 2 |
| **7** | Azərbaycan Respublikasında regional mərkəzlərin inkişafı və məskunlaşmanın nizamlanmasında onların rolu | 2 | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| **8** | Azərbaycan Respublikasında kənd məskunlaşmasının müasir vəziyyəti və davamlı inkişaf problemləri | 4 | 2 | 2 |
| **9** | Azərbaycan Respublikasında məskunlaşmanın iqtisadi və sosial bazasının yenidən qurulması istiqamətləri | 2 | 2 | |
| **10** | Məskunlaşmanın regional xüsusiyyətləri.<br>Bakı, Abşeron-Xızı iqtisadi rayonlarında məskunlaşmanın xüsusiyyətləri | 4 | 2 | 2 |
| **11** | Şəki-Zaqatala, Dağlıq Şirvan və Quba-Xaçmaz iqtisadi rayonlarında məskunlaşma sisteminin inkişafı | 2 | 2 | |
| **12** | Mərkəzi Aran, Şirvan-Salyan, Mil-Muğan iqtisadi rayonlarının məskunlaşma sistemi | 4 | 2 | 2 |
| **13** | Gəncə-Daşkəsən, Qazax-Tovuz iqtisadi rayonlarında məskunlaşmanın formalaşması istiqamətləri | 2 | 2 | |
| **14** | Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarında məskunlaşma sistemi inkişafı | 4 | 2 | 2 |
| **15** | Lənkəran-Astara və Naxçıvan iqtisadi rayonlarında məskunlaşma sistemi nizamlanması istiqamətləri | 3 | 2 | 1 |
| **Cəmi:** | | **45** | **30** | **15** |

## Mövzular və onların məzmunu

**1. Əhalinin öyrənilməsinin əhəmiyyəti, nəzəri-metodoloji əsasları və vəzifələri.** Əhali əsas məhsuldar qüvvələrin mühüm tərkib hissəsidir. Əhalinin öyrənilməsinin cəmiyyətin inkişafı və idarə edilməsində rolu. Əhalinin öyrənilməsinin nəzəri-metodoloji əsasları. Onun öyrənilməsində rolu olan Azərbaycan Respublikası və xarici ölkə alimləri. Siyahıyalmaların, dövri və illik statistik məlumatların əhalinin öyrənilməsində rolu.

Ölkənin iqtisadi və sosial inkişafında əhali göstəricilərinin nəzərə alınması. Demoqrafik proqnozlar və məskunlaşmanın öyrənilməsinin əhəmiyyəti.

**2. Azərbaycan Respublikasında vahid məskunlaşma sisteminin formalaşmasının təbii-coğrafi amilləri.** Təbii-coğrafi amillərin əhalinin məskunlaşması və yaşayış məntəqələrinin yerləşməsində əhəmiyyəti. Relyef, iqlim, topraq və bitki örtüyü ehtiyatlarının əhalinin məskunlaşmasına təsiri. Dağlıq və düzənlik ərazilərdə məskunlaşmanın xüsusiyyətləri. Su ehtiyatlarının nəzərə alınması və onlardan istifadə problemləri.

Təbii ehtiyatların əhalinin məskunlaşmasında rolu. Onlardan istifadə edilməsi istiqamətləri. Təbi ehtiyatlardan istifadə və şəhər məskunlaşmanın formalaşması.

**3. Azərbaycan Respublikasında vahid məskunlaşma sisteminin formalaşmasının iqtisadi və sosial bazası.** Əhalinin məskunlaşması sisteminin formalaşması prosesində təsərrüfat sahələrinin rolu. Sənaye əsas şəhərəmələgətirici amil kimi. Şəhərlərin təsərrüfat strukturunun səmərəli təşkili, onların əlverişli İCM-i, təbii şərait və ehtiyatlardan səmərəli istifadə edilməsi inkişafın mühüm amilidir.

Kiçik və orta şəhərlərdə sənayenin inkişafı şəhər məskunlaşmasının əsas amilidir. Kənd təsərrüfatı məhsullarının emalı regionlarda məskunlaşmanın iqtisadi bazasını təşkil edir.

Kənd məskunlaşmasının inkişafında kənd təsərrüfatının rolu. Aqrar islahatlar və kənd məskunlaşmasının iqtisadi bazasının yenidən qurulması. Sosial bazanın inkişafı və əhaliyə göstərilən xidmətlərin yüksəlməsi məskunlaşmanın inkişaf amilidir.

**4. Azərbaycan Respublikasında əhalinin demoqrafik göstəricilərinin dinamikası və əsas meylləri.** Əhalinin demoqrafik göstəriciləri: sayı, təbii artımı, cins-yaş, milli, dil, ailə-nikah tərkibi, miqrasiyası. Əhalinin demoqrafik göstəricilərinin formalaşmasına təsir edən ictimai-siyasi, tarixi-etnoqrafik və iqtisadi-coğrafi amillər. Ölkədə demoqrafik göstəricilərin inkişafının əsas meylləri və dinamikasında olan mərhələlər. Şəhər və kənd məntəqələrində demoqrafik göstəriciləri dinamikasında olan fərqlər. Onların yaranmasına təsir edən amillər.

Demoqrafik göstəricilərin nizamlanması sahəsində tədbirlər görülməsi. Demoqrafik siyasətin əsas istiqamətləri və onun həyata keçirilməsinin əhəmiyyəti.

**5. Azərbaycan Respublikasında məskunlaşmanın tarixi-coğrafi inkişaf xüsusiyyətləri.** Məskunlaşmanın müasir vəziyyətini onun tarixi inkişaf xüsusiyyətləri müəyyən edir. Məskunlaşmanın əsas inkişaf mərhələləri. Qədim, orta əsrlər, yeni dövr və ən yeni dövrdə şəhər və kənd məskunlaşmanın inkişaf xüsusiyyətləri. Orta əsr Azərbaycan Respublikası şəhərləri, onların yerinə yetirdiyi funksiyalar, inkişafının əsas xüsusiyyətləri.

XIX-XX əsrlərdə Azərbaycanda məskunlaşmanın inkişaf meylləri, baş verən əsas dəyişikliklər və irəliləyişlər. Müstəqillik illərində məskunlaşmanın inkişafı və dəyişikliklər. Tarixi qələbəmizdən sonra qaçqın və məcburi köçkünlərin öz tarixi ərazilərinə köçürülməsi.

**6. Azərbaycan Respublikasında şəhər məskunlaşması və urbanizasiya problemləri.** Şəhərlər, onların inkişafına təsir göstərən amillər. Şəhərlərin formalaşması və inkişafının əsas mərhələləri. Onların məskunlaşmanın inkişafında

rolu. Respublikanın şəhər yaşayış məntəqələri (şəhərlər və qəsəbələr), onların regional paylanmasında olan xüsusiyyətlər.

Azərbaycan Respublikasında urbanizasiya prosesləri. Onun inkişafının əsas istiqamətləri. Urbanizasiyanın inkişaf problemləri və regional xüsusiyyətləri. Paytaxt və digər regionlarda urbanizasiyanın fərqləndirici əlamətləri.

**7. Azərbaycan Respublikasında regional mərkəzlərin inkişafı və məskunlaşmanın nizamlanmasında onların rolu.** Şəhərlər məskunlaşmanın nizamlanması və inkişafının əsas mərkəzləridir. Regional mərkəzlərin ayrılmasının əsas prinsipləri və məskunlaşmanın inkişafında əhəmiyyəti. İerarxiya prinsipi əsasında şəhərlər, qəsəbələr, iri kənd yaşayış məntəqələrinin bölünməsi. Məskunlaşmanın dayaq karkasları. Respublika və iqtisadi rayon əhəmiyyətli dayaq karkasları, inzibati rayonın dayaq karkasları. Lokal-inzibati rayonların məskunlaşma mərkəzləri. Orta və kiçik şəhərlərin reginların sosial-iqtisadi inkişafında yeri və əhəmiyyəti.

**8. Azərbaycan Respublikasında kənd məskunlaşmasının müasir vəziyyəti və davamlı inkişaf problemləri.** Kənd məskunlaşmasının formalaşmasının əsas istiqamətləri. Məskunlaşmanı müəyyən edən amillər və onun inkişaf meylləri. Azərbaycan Respublikasında kənd məskunlaşmasının əlamətləri.

Müxtəlif ölçülü və təsərrüfat funksiyasına görə fərqlənən kənd yaşayış məntəqələrinin yerləşmə xüsusiyyəti. Dağlıq və düzənlik ərazilərdə kənd məskunlaşmasında baş verən dəyişikliklər. Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonunun məskunlaşmasında yaranan problemlər.

**9. Azərbaycan Respublikasında məskunlaşmanın iqtisadi və sosial bazasının yenidən qurulması istiqamətləri.** Azərbaycan Respublikasında məskunlaşmanın inkişafında mühüm rol oynayan iqtisadi və sosial bazanın yenidən qurulması istiqamətləri.

Keçid dövrünün çətinlikləri və təsərrüfat obyektlərinin fəaliyyətində olan problemlər. Həyata keçirilən iqtisadi islahatların əsas nəticələri, onların məskunlaşmanın nizamlanmasında əhəmiyyəti. “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları” (2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023), onların regionların inkişafında rolu. “Azərbaycan - 2020” İnkişaf Konsepsiyası və “Davamlı İnkişaf Proqramı”.

**10. Bakı, Abşeron-Xızı iqtisadi-coğrafi rayonlarında məskunlaşma sisteminin formalaşması.** İqtisadi rayonların tərkibi. Abşeron və Bakı paytaxt regionunda məskunlaşmanın inkişaf istiqamətləri və problemləri. Abşeron və regionlar arasında əhalinin məskunlaşmasında fərqlərin yaranması, əhalinin regionlar üzrə paylanmasında kəskin fərqlərin aradan qaldırılması yolları. Ekoloji gərginliyin, demoqrafik təzyiqin, məskunlaşmanın yükünün azaldılması zəruriliyi, əməktutumlu istehsal sahələrinin regiondan kənara çıxarılması məsələləri.

Böyük Bakının məskunlaşması problemləri, onun nizamlanması istiqamətləri. İqtisadi və sosial bazanın yenidən qurulması istiqamətləri. Şəhər məskunlaşmasının xüsusiyyətləri.

**11. Şəki-Zaqatala, Dağlıq Şirvan və Quba-Xaçmaz iqtisadi rayonlarında məskunlaşma sisteminin inkişafı.** İqtisadi rayonların tərkibi. Təbii şərait və ehtiyatlardan istifadə edilməsi və məskunlaşmanın inkişafı. Şəhər və kənd məskunlaşmasının inkişafı və problemləri. Düzənlik və dağlıq ərazilərin məskunlaşma xüsusiyyətləri. Əhalinin hündürlük qurşaqları üzrə yerləşməsi. Dağlıq ərazilərdə əhalinin məskunlaşmasının nizamlanması. Mövcud və artan demoqrafik potensialın yerlərdə saxlanılması istiqamətində həyata keçirilməsi zəruri olan tədbirlər.

“Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları” (2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023) və onların həyata keçirilməsinin iqtisadi rayonlarda məskunlaşmanın inkişafında əhəmiyyəti.

**12. Mərkəzi Aran, Şirvan-Salyan, Mil-Muğan iqtisadi rayonlarının məskunlaşma sistemi.** İqtisadi rayonun

tərkibi, inzibati rayonlar və şəhərlər. Şəhər və kənd məskunlaşmasının əsas istiqamətləri, formalaşmasına təsir göstərən amillər. Düzən relyef şəraitinin, yarımsəhra və quru-çöl iqliminin, hidrotexniki qurğuların məskunlaşmanın daxili və xarici fərqlərinə təsiri.

Mingəçevir-Yevlax, Şirvan-Salyan sənaye qovşağları. Kənd təsərrüfatının kənd məskunlaşmasına təsiri. Təsərrüfatın ixtisaslaşma istiqamətləri və əhalinin məskunlaşması. Əhalinin səmərəli məskunlaşdırılması yolları, perspektiv inkişafı problemləri. “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları” (2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023) və onların həyata keçirilməsinin iqtisadi rayonda məskunlaşmanın inkişafında əhəmiyyəti.

**13. Gəncə-Daşkəsən, Qazax-Tovuz iqtisadi rayonlarında məskunlaşmanın formalaşması istiqamətləri.** İqtisadi rayonun tərkibi. Gəncə aqlomerasiyası. Rayon əhəmiyyətli şəhərlər və kənd məskunlaşması. Əhalinin yerləşməsində yaranan fərqlər, məskunlaşmanın inkişafında baş verən meyllər. Müharibə şəraitinin məskunlaşma sisteminə təsiri. Sərhəd rayonlarında məskunlaşmanın inkişafı sahəsində həyata keçirilən tədbirlərin genişləndirilməsi, əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi, yaşayış məntəqələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi.

Gəncə-Daşkəsən sənaye qovşağı və təbii ehtiyatlardan istifadə edilməsi, şəhər məskunlaşmasının inkişaf istiqamətləri. “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları” (2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023) və onların həyata keçirilməsinin iqtisadi rayonda məskunlaşmanın inkişafında əhəmiyyəti.

**14. Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarında məskunlaşma sistemi inkişafı.** İqtisadi rayonların tərkibi. Şəhər və kənd məskunlaşmasının formalaşması istiqamətləri. Əhalinin dağlıq və düzənlik rayonlarda yerləşməsi xüsusiyyəti, məskunlaşmada baş verən meyllər. Dağlıq rayonların

inkişafı, əhalinin yerlərdə saxlanılması və işçi qüvvəsinin iş yerləri ilə təmin olunması problemləri.

Ermənistan tərəfindən vaxı ilə işğala məruz qalmış şəhər və kəndlər. Şuşa, Ağdam, Cəbrayıl, Fizuli kimi yaşayış məntəqələrinin dağıdılması. İşğaldan azad olunmuş ərazilərin inkişafı istiqamətində görülən işlər. İqtisadi rayonların işğala qədərki tərkibi, demoqrafik potensialı.

“Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları” (2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023) və onların həyata keçirilməsinin iqtisadi rayonlarda məskunlaşmanın inkişafında əhəmiyyəti.

**15. Lənkəran-Astara və Naxçıvan iqtisadi rayonlarında məskunlaşma sistemi nizamlanması istiqamətləri** İqtisadi rayonların tərkibi. Təbii-coğrafi şəraitin əhalinin məskunlaşmasına təsiri. Hündürlük qurşaqları üzrə əhalinin yerləşmə xüsusiyyəti, fərqləri və bunun səbəbləri. Şəhər və kənd məskunlaşmasının əsas xüsusiyyətləri. Məskunlaşmanın inkişafında baş verən meyllər. Demoqrafik inkişafın istiqamətləri. Regional mərkəz rolunu oynayan şəhərlər. Rayon əhəmiyyətli şəhərlər və kəndlər.

Naxçıvanın blokada şəraitinin məskunlaşmaya təsiri. Əhalinin səmərəli ərazi təşkili problemləri. “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları” (2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023) və onların həyata keçirilməsinin iqtisadi rayonlarda məskunlaşmanın inkişafında əhəmiyyəti.

## Ədəbiyyat:
### Əsas

1. Azərbaycanın demoqrafik göstəriciləri 2021. Bakı: DSK, 2022, 560 s.
2. Azərbaycanın əhalisi- 2021, Bakı: DSK, 2022, 529 s.
3. Azərbaycanın regionları -2022. Bakı: DSK, 2023, 828 s.
4. Azərbaycanın sənayesi - 2021. Bakı: DSK, 2022, 327 s.

5. Azərbaycanın statistik göstəriciləri -2021. Bakı: DSK, 2022, 768 s.
6. Azərbaycanın kənd təsərrüfatı - 2019. Вакı: ДSК, 2020, 674 s.
7. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2014-2018-ci illər). Bakı, 2014,
8. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı, 2019.
9. Azərbaycan Respublikası əhalisinin 2009-cu il siyahıyaalmasının yekunları. I hissə. Əhalinin sayı, cins-yaş tərkibi. Вакı: ДSК, 2009, 629 s.
10. Azərbaycan Respublikası əhalisinin 2019-cu il siyahıyaalmasının yekunları. I hissə. Əhalinin sayı, yerləşməsi, cins, yaş tərkibi və nikah vəziyyəti. Вакı: ДSК, 2019, 710 s.
11. Eminov Z.N. Azərbaycanın əhalisi. Bakı: Çıraq, 2005, 544 s.
12. Əfəndiyev V.Ə., Dəmirqayayev Ş.Q. Azərbaycan Respublikası şəhərlərinin inkişafının coğrafi məsələləri. Bakı: Nicat, 1995, 176 s.
13. Nağıyev S.Q. Azərbaycanın regional mərkəz şəhərlərinin inkişafının sosial-iqtisadi problemləri, regional iqtisadi siyasət və kooperasiya münasibətlərinin inkişafı. Beynəlxalq elmi-praktiki konfrans. Bakı: 2014, s. 273-283
14. Vüsət Əfəndiyev, Saleh Nağıyev. Geourbanistika. Bakı: 2016, 272 s.

**Əlavə**

1. Əfəndiyev V.Ə. Urbanizasiya və Azərbaycanın şəhər yaşayış məskənləri. Bakı: Bakı Universitetinin nəşriyyatı, 2002, 397 s.

2. Əfəndiyev V.Ə. Nağıyev S.Q. Əhali coğrafiyası. Bakı: Bakı Universitetinin nəşriyyatı, 2006, 338 s.
3. V.Ə.Əfəndiyev, S.Q.Nağıyev. Azərbaycanın şəhər və kəndlərinin inteqrasiyasının coğrafi xüsusiyyətləri. BDU, Xəbərlər, Təbiət elmləri seriyası, 2009, s. 154-158
4. Paşayev N.Ə., Əyyubov N.H., Eminov Z.N. Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası. Bakı: Çıraq, 2010, 416 s.
5. Regionların sosial-iqtisadi inkişafı (2019-2023-cü illər). Bakı: ДSK, Yanvar 2020, 525 s.
6. Rəşidov Ç.M. Azərbaycan SSR-də şəhərlərin inkişafının müasir xüsusiyyətləri. Bakı: Bilik cəmiyyəti, 1985, 42 s.